Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

# MƏDƏNİ HƏYAT

2 * 2014



# Ədəbiyyat tariximizi dirildən insan

Azərbaycan ədəbiyyatşünaslığı və pedaqoji fikir tarixində məşhur "Azərbaycan alimi, tənqidçi və pedaqoqu" kimi dəyərləndirilən Firidun bəy Köçərli tərəqqipərvər elm və ədəbiyyat xadimləri sırasında xüsusi yer tutan şəxsiyyətlərdəndir. Firidun bəy Köçərli ən müqtədir, ən sevgili ədiblərimizdən biridir. Onu böyüklü, kiçikli hamı sevir. Bəli, F.Köçərli sözü ilə işi düz gələn alimdir.

**Firidun bəy Köçərliyə görə kamil şair və ağıllı ədib həqiqətdə o şair və o ədibdir ki, "öz millətinin dili ilə danışa, ürəyi ilə, hissi və ağlı ilə fikir edə". Çünki "milləti haqq və savaba irşad edən, şöhrət və hörmətə yetirən onlardır".**

**Firidun bəy Köçərli böyük pedaqoqdur. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Qazaxa köçürməklə xalqımızın maariflənməsində əvəzolunmaz əməyi olan şəxsiyyətdir. Firidun bəy sadəcə praktik müəllim deyildi. O, tədqiqatçı-alim, ədəbiyyatşünas, nəzəriyyəçi-pedaqoq və yüksək mədəniyyətli, humanist ziyalı idi. Böyük ədibin fikrincə, "Türk yurdunun ən şiddətli ehtiyacı məktəb və maarifdir. Hakim bir millətin məhkum düşməsi, məhkum bir millətin yox olması məktəbsizlikdən irəli gəlir".**

Bu çətin dövrdə, 1886-cı ildə F.Köçərli Azərbaycan teatrının əsasını qoymuşdur. Firidun bəyin arxivi XX əsr ictimai həyatımızın güzgüsüdür. Onun fəaliyyət göstərdiyi dövrdə ana dili və onun inkişafı uğrunda gedən mübarizənin öncüllərindən idi.

F.Köçərlinin "Ana dili", "Məişətimizə dair", "Cavab", "Orta təhsil müəssisələrində yerli dillərin tədrisinə dair" və s. məqalələrində, habelə müxtəlif əsərlərində irəli sürdüyü fikirlər onun milli dilin rəvac tapması və tərəqqisi yolunda fədakar carçı olduğunu təsdiqləyir. Ədibin Azərbaycan xalqına bəxş etdiyi çox gözəl, müdrik kəlamları var.

Azərbaycan dilinin inkişafı, onun saflığı, eləcə də yad təsirlərdən qorunması, milli məktəblərdə ana dilinin tədrisi və onu yaxşılaşdırmaq, məktəb dərslikləri, qiraət kitablarının sadə, açıq dildə yazılması, bədii əsərlərin, mətbuat və kitabların ümumxalq dilində intişarı və s. kimi vacib, əhəmiyyətli məsələlərin həllində F.Köçərlinin xidmətləri böyükdür. Firidun bəy Köçərli Azərbaycan ədəbi fikrinin yeni mərhələyə yüksəlməsində böyük xidməti olan, milli ədəbiyyatın xalq həyatı ilə yaxınlaşması, ideyaca saflaşması, düzgün istiqamətdə inkişafı üçün mühüm, faydalı nəzəri, təcrübi iş görən, ədəbi dilin ümumxalq dili əsasında tərəqqisi və yad təsirlərdən uzaqlaşması yolunda çalışan görkəmli simalardan idi. O, tükənməz məhəbbətlə sevdiyi milli ədəbiyyatı bütün həyatı boyu təbliğ və tədqiq etməklə məşğul olmuş, onun həm keçmişini, həm müasir nailiyyətlərini qiymətləndirməyin gözəl nümunəsini göstərmişdir.

Qırx illik fəaliyyəti dövründə yazıçı milli dramaturgiyamızın banisi M.F.Axundzadənin maarifçilik ənənələrinin fəal təbliğatçısı və yorulmaz davamçısı olmuşdur.

Bəli, ədəbiyyatımızı müntəzəm bir şəklə salmaq və ümumən tanıtmaq əhəmiyyətli məsələlərdəndir. Firidun bəy Köçərlinin bu yolda iyirmi ildən bəri çalışması və ədəbiyyatımızı nizama salması çox böyük bir nailiyyət idi. F.Köçərlinin çoxəsrlik Azərbaycan ədəbi irsini toplayıb, elmi prinsip və ardıcıllıqla öyrənərək öz tədqiqatının nəticələrini "Azərbaycan ədəbiyyatı" əsərində xalqın istifadəsinə verməsi onun ən böyük xidməti sayılır. Bu əsəri yazmaqla Köçərli müasir Azərbaycan ədəbiyyat tarixçiliyi elminin əsasını qoymuş və beləliklə, gələcək tədqiqatçılar üçün geniş bir yol açmışdır. Bu şəxsiyyət ədəbiyyat tariximizi yazmaqla bütün keçmişimizi diriltmiş, şairlərimizin ülvi ruhlarını canlandırmış və həyati-fikriyyəmizi təbii yoluna salmışdır.

F.Köçərli ədəbiyyatın xəlqiliyini hər hansı bir yazıçının xalq həyatı ilə, ictimai varlıqla münasibətlərinin mütərəqqi mahiyyətində görürdü. Yazıçının öz mənsub olduğu xalqın mənəvi aləmi ilə sıx bağlılığını bu işdə həlledici şərt sayırdı. O deyirdi: "Yazıçı və ya şair nə qədər öz millətinə yaxın olsa, milliyyət qanı onun damarlarında nə qədər artıq cərəyan etsə, onun əsərlərində milliyyət nişanəsi artıq görünəcəkdir". "Azərbaycan ədəbiyyatı"nda F.Köçərli ictimai və mədəni tərəqqi uğrunda qələm çalan, yaxşını-yaxşı, pisi-pis kimi göstərən, mövhumat, qəflət və dini xürafatı ifşa edən "həqpərəst və millətpərvər ədiblərə" daha artıq yer vermiş, onların yaradıcılıq problemlərini geniş şərh etməyə çalışmışdır. O, tarixçi olduğu qədər ədəbiyyatın müasir inkişafı məsələləri ilə də məşğul olan istedadlı bir tənqidçi idi. Müasir ədəbiyyatın ideya, mövzu, bədii sənətkarlıq, dil və s. məsələləri onu daim maraqlandırırdı. F.Köçərli yazırdı: "İndiki dövrdə xalq üçün gözəl nəsihətlər, hikmətamiz hekayələr, vətənə məhəbbət, millətə xidmət, dostluqda sədaqət, əhdə vəfa etmək, müqəddəs hisslər haqqında əsərlər yaratmaq lazımdır".

"Azərbaycan ədəbiyyatı"nın müəllifi F.Köçərli öz xalqının bəşər mədəniyyəti xəzinəsinə verdiyi inciləri də sərraf kimi tapıb qiymətləndirməyi bacarmış, Azərbaycan ədəbiyyatının böyük ideallarla, sağlam və yüksək hisslərlə zəngin olduğunu iftixarla təhlil və sübut etmişdir.

O, Azərbaycan tənqid və ədəbiyyatşünaslıq elminin ilk peşəkar və görkəmli nümayəndəsidir. Ədibin elmi və ictimai fəaliyyəti XX əsr Azərbaycan ədəbiyyatı, habelə bir sıra qardaş xalqların görkəmli sənətkarlarının yaradıcılığı və ümumən mütərəqqi, demokratik ədəbi irslə sıx bağlı olmuşdur. F.Köçərli bu elm sahəsinin təməl daşlarını qoymuş və onun gələcək inkişafı üçün geniş yollar açmışdır. Böyük alim mütərəqqi klassik irsi sadəcə öyrənməklə qalmamış, habelə ondakı xəlqilik və beynəlmiləlçiliyin, realizm və humanizmin fəal təbliğatçısı və müdafiəçisinə çevrilmişdir. O, yazıb - yaratdığı dövrdə bir alim kimi xalqın mədəni tərəqqisinə çalışmışdır. F.Köçərlinin elmi-bədii yaradıcılıq dairəsi geniş və çoxcəhətli olmuşdur. Qırx illik fəaliyyəti dövründə o, tənqid, ədəbiyyatşünaslıq, publisistika və pedaqoji məsələlərlə yanaşı, bir sıra yaradıcılıq sahələrində qələmini sınamış, dövrünün mahir tərcüməçisi kimi şöhrət qazanmışdır.

Firidun bəy Köçərli Azərbaycan folklorşünaslığında da xüsusi xidmətləri olan şəxsiyyətlərdəndir. Mütəxəssislərin də təsdiqlədikləri kimi, folklorşünaslığın yaranması, şifahi xalq ədəbiyyatının toplanması, sistemləşdirilib nəşr olunmasında Köçərlinin özünəməxsus yeri vardır.

Firidun bəy Köçərli "bizim fazil və həkim bir şairimiz" adlandırdığı Nizaminin əsərlərini azərbaycancaya "açıq dildə tərcümə edib, milli ədəbiyyatımızı dövlətləndirməyi", "fars dilini yaxşı bilən" şairlərimizin baş vəzifələrindən biri hesab etmişdir. O, demişdir ki, "insaf deyil ki, onun möcüznüma kəlamları Avropa dillərinə tərcümə olunub intişar tapsın, bizlər isə onu öz dilimizdə mütaliə edib feyziyab olmaqdan məhrum qalaq". Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatının öz təcrübəsinə, onun zəngin ənənələrinə istinad edərək realizm nəzəriyyəsini daha da inkişaf etdirmişdir.

Ədibə görə, sənətkar gərək xalqın kədər və sevincinin tərcümanı olsun, onu qəflətdən bidar edib, tərəqqi və maarif səmtinə cürət və cəsarət ilə dəvət etsin.

Onun Azərbaycan dilinin qorunması sahəsində də xidmətləri böyükdür. Belə ki, Azərbaycan dilini başqa dillərin zərərli təsirindən qorumaq

üçün F.Köçərli, Y.V.Çəmənzəminli, Ü.Hacıbəyli, Ö.F.Nemanzadə və başqa mütərəqqi ziyalılardan ibarət olan cəbhə yaradılmışdır. Bu cəbhənin işi Azərbaycan ədəbi dilini canlı xalq dilinə getdikcə daha artıq yaxınlaşdırmaq, inkişaf etdirmək idi. Onlar dili millətin əvəzsiz sərvəti hesab edirmişlər. Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı" əsərində məşhur rus pedaqoqu K.D.Uşinskinin aşağıdakı sözlərini misal gətirmişdir: "Madam ki, bir millətin özünəməxsus ana dilisi xarici dillərin təqəllüb və təsəllütündən salamat qalıbdır, o millət özü də salamatdır".

F.Köçərli çoxcəhətli yaradıcılığı boyu bir ədəbiyyat tarixçisi, nəzəriyyəçi və tənqidçisi kimi tədqiq və təbliğ etdiyi sahənin, demək olar, bütün əsas məsələlərinə toxunmuş, onlar barədə öz görüşlərini aydın izah etməyə çalışmışdır. O, ədəbiyyatı hər bir xalqın "şan və əzəmətinə, tərəqqi və səadətinə bais olan səbəblərdən biri" hesab edib iki hissəyə ayırmışdır: şifahi və yazılı ədəbiyyat.

Azərbaycan ədəbiyyatı tarixinin bu yorulmaz və vətənpərvər tədqiqatçısı bir ədəbiyyatşünas kimi araşdırmalarına folklor nümunələrini yazıya almaqla başlamışdır. Qədim musiqi mədəniyyətimizin beşiyi olan Şuşada dünyaya göz açmış Firidun bəy Köçərli el sənətini dərin vətəndaşlıq hissi ilə sevərək qədrini bilmiş, şifahi ədəbiyyatı itib-batmaqdan, unudulmaqdan qorumağı vacib sanmışdır. Bunun üçün böyük maarifçi-pedaqoq və ədəbiyyatşünas toplayıcılıq işinə başlamış, aşıq şeirlərinin, xalq bayatılarının, uşaq folkloru incilərinin bir qismini öz dövrünün mətbuatında çap etdirmişdir.

"Azərbaycan ədəbiyyatı"nın müəllifi Firidun bəy Köçərli öz xalqının bəşər mədəniyyəti xəzinəsinə verdiyi inciləri də sərraf kimi tapıb qiymətləndirməyi bacarmış, ədəbiyyatımızın böyük ideallarla, sağlam və yüksək hisslərlə zəngin olduğunu iftixarla təhlil və sübut etmişdir. Bu məqsədlə Köçərli Azərbaycan klassiklərindən M.V.Vidadi, M.P.Vaqif, A.Bakıxanov, Q.Zakir, M.F.Axundzadə, S.Ə.Şirvani, N.Vəzirov, M.Ə.Sabir, C.Məmmədquluzadəni misal gətirmiş, onlardan çoxunun yaradıcılığını və ədəbi irsini geniş təhlildən keçirmiş, realist ədəbi cərəyanın özünəməxsus xüsusiyyətlərini, inkişaf yolunu və ideya istiqamətlərini də məharətlə üzə çıxarmışdır.

Firidun bəy Köçərli təkcə Azərbaycan ədəbiyyatının tədqiqi ilə kifayətlənməmiş, əsərlərində Şərq, Qərbi Avropa, rus, gürcü və s. ədəbiyyatların klassikləri haqqında da elmi mülahizələr yürütmüş, ədəbi oxu kitabların çapına çalışmışdır.

Şifahi xalq ədəbiyyatının növ və janr zənginliyini aşkarlayan görkəmli ədəbiyyatşünas alim qeyd etmişdir ki, keçmişdə şan və qüvvət sahibi olan türk millətinin öz məişətinə, ayin və adətinə dair yaratdığı nağıl və hekayələr, gözəl mənzumələr, hikmətamiz məsəllər, atalar sözləri, nazik mənalı müəmma və tapmacalar, körpələrin qəlbini açan düzgülər və yanıltmaclar, heyvanat qisminə məxsus sayaçı sözləri unudulmaqdadır. Böyük maarifpərvər bu unudulmaq təhlükəsini duyaraq folklorumuzu toplamağa başlamışdır. O dövrlərdə məktəblərdə çalışan soydaşlarına yazdığı məktublarda toxunduğu məsələyə o bir daha qayıdaraq göstərmişdir: "O millət ki, öz tarixini, dolanacağını, vətənini və dilini sevir - bu qism əsərləri kəmali şövq və diqqətlə cəm edib sərmayə kimi saxlayır və uşaqların ilk təlim-tərbiyəsini onları öyrətməklə başlayır".

Firidun bəy Köçərli gənc nəsli düzgün tərbiyə etmək, onlarda vətənə, xalqa, ana dilinə məhəbbət duyğuları oyatmaq üçün uşaqları hələ kiçik yaşlarından şifahi ədəbiyyat nümunələri ilə tanış etməyi ilkin tərbiyə üsullarından saymış və bunu valideynlərə məsləhət görmüşdür. Heç təsadüfi deyil ki, o, çap etdirdiyi şifahi xalq ədəbiyyatı nümunələri kitabına bu baxımdan çox mənalı olan "Balalara hədiyyə" adı vermişdir.

Firidun bəy Köçərli "Balalara hədiyyə" kitabı üçün belə söyləmişdir: "Bu məcmuəni hər kəs oxusa - böyük, ya kiçik - onun qəlbi açılıb xəndan olacaqdır. Balalar şad olacaq bu səbəbə ki, onda dərc olunan əsərlərin cümləsi onların dünyasındandır".

Firidun bəy Köçərli 1908-ci ildə "Balalara hədiyyə"kitabçasını çap etdirmişdir. Bu əsərlər minlərlə oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. "Balalara hədiyyə" haqqında Əli Sultanov yazmışdır ki, "bu kitabdan vətən qoxusu, dağların ətri, köçərilərin tüstüsü gəlir".

Abdulla Şaiq belə hesab etmişdir ki, "bizim el ədəbiyyatımız o qədər vüsətlidir ki, onu yazmaqla qurtaracaq şeylərdən deyil. Millətimizin istedad və məharəti - fitrilərinə və əhvali-ruhiyyəsinə aşina olmaq istəyənlər möhtərəm Firidun bəy Köçərlinin "Balalara hədiyyə" kitabçasından istifadə edə bilərlər. O, camaatımızın arasındakı nağıl, məsəl, tapmaca və şeirləri bir yerə toplamaqla körpələrimizə böyük hədiyyə etmişdir".

Firidun bəy Köçərli "Balalara hədiyyə" məcmuəsini məhz bu niyyətlə hazırlamışdır.

Ədibin xalq qarşısında tarixi xidmətinin ifadəsi olan "Balalara hədiyyə" 1912-ci ildə Orucov qardaşlarının mətbəəsində çapdan buraxılmışdır. Kitabda Firidun bəy Köçərli şifahi ədəbiyyatın tədrisinin təlimi, tərbiyəvi əhəmiyyəti, el ədəbiyyatının bədii-estetik dəyərləri barədə çox gözəl fikirlər söyləmişdir.

F.Köçərlinin folklorşünaslıq baxımından dəyərli fikirləri təkcə bunlar deyil. Atalar sözləri və məsəllərin xalqın tarixi təcrübəsi və həyatı ilə bağlı yarandığını qeyd edən ədəbiyyatşünas nağılların çoxunun şadlıq ilə qurtardığını, qəhrəmanların bəla və müsibətlərə düçar olduqlarını, ağ div və əjdahalarla qarşılaşdıqlarını göstərmiş, epik folklor nümunələrinin poetikasına yığcam şəkildə toxunmuşdur.

Firidun bəy Köçərlinin folklorşünaslıq baxımından maraq doğuran fikirləri arasında nağıllarda heyvanat qisminin insana mənsub olan xasiyyətlərini ümumiləşdirib dəqiq səciyyələndirməsidir.

"Balalara hədiyyə" kitabı Azərbaycan folklorunun ilk antologiyası idi. Bu toplu indi də uşaqlar üçün maraqlıdır, əzizdir. "Balalara hədiyyə" uşaqların fikrini aydınlaşdıran, xəyalını qanadlandıran, uşaqlara həyat və təbiət haqqında məlumat verən qiymətli xəzinədir.

Dövrünün ədəbi hadisələrini diqqətlə izləyən Firidun bəy Köçərli ədəbiyyatda xəlqiliyin və demokratik meyllərin inkişaf etdirilməsi üçün ciddi səy göstərmiş, realizmin yorulmaz təbliğatçısı olmuşdur. Onun C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, N.Nərimanov kimi sənətkarların əsərləri və "Molla Nəsrəddin" jurnalı haqqında söylədiyi fikirlər tədqiqat nöqteyi-nəzərindən çox qiymətli və maraqlıdır. Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatşünaslığı tarixində ilk dəfə olaraq XX əsrə qədərki ədib və şairlərin böyük əksəriyyətini əhatə edən ədəbiyyat tarixini yazmağa təşəbbüs göstərmişdir. "Materiallar"da yüz iyirmi doqquz şairin ədəbi irsi və onlardan böyük bir qisminin ilk dəfə olaraq tərcümeyi-halı verilmiş, əsərləri haqqında orijinal fikirlər söylənmişdir. Firidun bəy Köçərlinin ədəbiyyatımızın Füzuli, Vaqif, M.F.Axundov, Zakir, S.Ə.Şirvani kimi görkəmli simalarının yaradıcılığına həsr edilmiş tədqiqatı onun Azərbaycan ədəbiyyatına çox gözəl aşina olduğunu göstərir. Vaqif, Vidadi, Nəbati, Zakir və bir sıra başqa Azərbaycan şairlərinin tərcümeyi-hallarına dair ilk geniş məlumat, ədəbiyyatımızın və mədəniyyətimizin fəxri olan M.F.Axundzadə haqqında birinci kitab F.Köçərli qələminin məhsuludur.

Firidun bəy Köçərlinin həm tənqidi məqalələrində, həm də tədqiqatçılıq fəaliyyətində bariz şəkildə nəzərə çarpan xüsusiyyətlərdən biri və demək olar ki, ən başlıcası onun müasirlik problemini ön plana çəkməsidir. Məşhur yazıçı-alim Mir Cəlal Paşayev onun xidmətlərini nəzərə alaraq demişdir: "Bir institutun görə bilmədiyi işi F.Köçərli təkbaşına görmüşdür".

Bu görkəmli maarifçi iyirmi ildən çox Qoridə, on il İrəvan gimnaziyasında, iki ilə yaxın Qazax seminariyasında azərbaycanlı gənclərin təlim-tərbiyəsi ilə məşğul olmuş və "Azərbaycan ədəbiyyatı" kimi çox sanballı elmi əsər yazmışdır.

Firidun bəy Köçərlinin dilə dair görüşlərində mətbuat dili məsələləri də mühüm yer tutmuşdur. Ümumiyyətlə, ədəbi-bədii dildə olduğu kimi, burada da onun ardıcıllıqla müdafiə və təbliğ etdiyi fikir mətbuatın xalq dilinə yaxın, aydın, sadə, anlaşıqlı bir dildə olması tələbi idi. F. Köçərli müasir ziyalılara və tələbələrinə Azərbaycan dilini yaxşı bilmək, bu dilin canlı üslubunda yazıb yaratmaq üçün Vaqif, Vidadi, Bakıxanov, Zakir, Axundzadə, Seyid Əzim, Zərdabi kimi yazıçıların əsərlərini oxuyub öyrənməyi məsləhət görmüşdür. O qeyd etmişdir ki, Vaqifin adını eşitməyən və şənində söylənən "Hər oxuyan Molla Pənah Vaqif olmaz" məsəlini bilməyən yoxdur. Vaqifi belə şöhrətləndirən, əlbəttə, onun rəvan təbi, mövzun kəlamı və gözəl qafiyələri olubdur".

Klassiklərin məziyyətini onların dilə ehtiram və məhəbbətində, söz ustaları olmalarında görən alim göstərmişdir ki, "böyük ədiblərin yazısı həmişə açıq və sadə olur". Firidun bəy Köçərlinin fikrincə Mirzə Fətəli Axundzadənin, Qasım bəy Zakirin, Həsən bəy Məlikzadənin asari-qələmiyyələri bizim bu qövlümüzə şahiddir.

**Tənqid və ədəbiyyatşünaslıq elmimizin indiki mərhələsində F.Köçərli ənənələri yaşayır, davam və inkişaf etdirilir.**

**Şəhla QƏMBƏROVA,**
***F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru***